SƏDAQƏT  DƏRSİ

Bu ömür bir nəğmədir ki,
Gərək hər zaman səslənə.
Bu ömür bir kitabdır ki,
Oxunmalı dönə-dönə.

**Bu ömür bir məktəbdi ki,**
**Onda sədaqət dərsi var.**
**Bu ömür bir örnəkdi ki,**
**Onda mətanət dərsi var.**

Bu ömür bir ümmandı ki,
Fırtınalı, qasırğalı.
Bu ömür bir ormandı ki,
Qucar yurdu min budağı.

**Bu ömür bir nəsihət ki,**
**Onda ləyaqət dərsi var.**
**Bu ömür elə bir ibrət ki,**
**Onda fəxarət dərsi var.**

Bu ömür bir qəhrəmanın,
Yenilməzlik hekayəti.
Sadədən-sadə insanın,
Dahi olmaq şücaəti.

***Bu ömür bir aynadı ki,***
***Onda nəsihət dərsi var.***
***Bu ömür bir tamaşa ki,***
***Onda dəyanət dərsi var.***

***Onda sədaqət dərsi var!***
***Onda məhəbbət dərsi var!***

## ZƏRİFLİK

Çox istədi qoysun məni dövran sənə həsrət,
Bağlandısa yollar, daha çox artdı sədaqət.

Sən incə, zərif bir gül idin, bəxtimə düşdün,
Hər dürlü bəladan məni hifz etdi məhəbbət.

**Sən ömrümə İlham gətirən bir çıraq oldun,**
**Sönməz o çıraq, getməz o ülfət, o lətafət.**

İllər boyu ən mərhəm olan dost səni bildim,
Öz könlümü yalnız sənə mən etdim əmanət.

Hər an ki, səninlə bir idik, nəğmə kimiydi,
Istərdi ürək bilməsin əsla bu səadət.

**Sən ömrümə İlham gətirən bir çıraq oldun,**
**Sönməz o çıraq, getməz o ülfət, o lətafət.**

Sən gözlərə nur yaymağa gəlmiş mələk idin,
Nur səpdi mənim taleyimə səndəki şəfqət.

Gördük həyatın hər üzünü, tapdıq, itirdik,
Sevgiylə dolu gündən əziz olmadı nemət.

## VƏFA

Gəldin, gəlişinlə həyatım növbahar oldu,
Mehrin mənə güc verdi, könül bəxtiyar oldu.

**Min-min ürəyə sığmayacaq bir günəş ikən**
**Sığdın bu zərif qəlbə, ürək nura yar oldu.**

Tale sınadı, keçdik onun çox yoxuşundan,
Səndə məni heyran eləyən etibar oldu.

Bir dağ kimi gərdin sinəni, haqqa tapındın,
Vaxt imtahan etdi, sənin əzmin açar oldu.

Sevginlə işıqlandı yuvam, qəm unuduldu,
Tutduq əl-ələ, sirdaşımız arzular oldu.

Sən zirvələrin zirvəsi, ulduz kimi parlaq,
Fikrin də, sözün də mənə bir iftixar oldu.

**Min-min ürəyə sığmayacaq bir günəş ikən**
**Sığdın bu zərif qəlbə, ürək nura yar oldu.**

Mən gözlədim hər gün yolunu ilk görüşümtək
Bizdən bu vəfa dərsi də bir yadigar olldu.

ARZUN
Bu Vətən, bu torpaq,
Gözündə bir inci.
İstədin biz olaq
Hər işdə birinci.

Sən yaydın hər yana,
Şöhrətin bu elin.
Göstərdin cahana,
Sehrini bu dilin.

İstədin bu Vətən,
Ulduztək parlasın.
Sevinsin ürəkdən,
Şimşəktək gurlasın.

İstədin vətənin,
Çevrilsin cənnətə.
Xalqını öyrətdin
Torpağa hörmətə.

İstədin qovuşa,
Güc ola qardaşlar.
İstədin dünyada
Ucala soydaşlar.

İstədin yurdunun,
Gözləri dolmasın.
Köçkünü, qaçqını,
İtkini olmasın.

İstədin imzamız
Qalmasın kənarda.
İmzalar içində,
Seçilsin bu imza.

**Bu Vətən, bu torpaq,**
**Gözündə bir inci.**
**İstədin biz olaq**
**Hər işdə birinci.**

***TÜRKİYƏYLƏ AZƏRBAYCAN***

Türkiyəylə Azərbaycan,
Atatürklə Ata Heydər,
Bir-birinə bağlı candan,
İki qüdrət, iki öndər.

**Hər ürəyə doğma gələr,**
**Nə deyibsə Ata Heydər.**
**Atatürkdən olan sözlər,**
**Hikmət dolu, dildə əzbər.**

**“Azərbaycan sevinəndə**
**Sevinərik biz ürəkdən.**
**Azərbaycan qəmə dalsa.**
**Üzülərik biz də qəlbən”.**

**Atatürkdən qalan sözlər**
**Hikmət dolu, dildə əzbər.**
**Hər ürəyə doğma gələr,**
**Nə deyibsə Ata Heydər:**

**“Bir millətik, iki dövlət,**
**Dilimiz bir, qanımız  bir.**
**Sevgimizə yoxdu sərhəd,**
**Ruhumuz  bir, canımız bir”.**

Türkiyəylə Azərbaycan,
Atatürklə Ata Heydər,
Bir-birinə bağlı candan,
İki qüdrət, iki öndər.

## *SƏN TARİXİ YARADAN*

Zaman sonsuz bir dənizsə,
Gəmidir Azərbaycan.
Sən millətin bələdçisi,
Ən nurlu bir mayaksan.

Tarix tale töhfəsidir,
O, hamının qisməti.
Hər oğula nəsib olmaz,
Onu qurmaq qüdrəti.

**Tarix bizim yolumuzdur,**
**Gedirik zaman-zaman.**
**Sən tarixi seyr etmədin,**
**Sən - tarixi yaradan!**

Sınaqlara çəkər xalqı,
Tarix haqsızdı hərdən.
Çox düyünü aça bildin,
Sən – tarixi yönəldən!

**Sən – sabahın qurucusu,**
**Uzağı görən memar.**
**Dövləti elə yüksəltdin,**
**Dünya durduqca durar.**

Qalib gəldin, qalib getdin,
Zəfər sənin yaşıdın.
Sən millətin qeyrətini
Ürəyində daşıdın.

**Sən tarixi yaza-yaza,**
**Özün də tarix oldun.**
**Xalqın könül dəftərində**
**Başda dayanar adın.**

ZİRVƏLƏRDƏN BAXAN ÖNDƏR

Torpaqları vətən edən
Ona qurban gedənlərdir.
Yerə - yurda həyat verən

**Onu gülşən edənlərdir,**
**Tumar çəkib sevənlərdir.**

Millətləri millət edən
Ürəyi od olanlardır.
Məmləkətə dayaq duran

**Elindən od alanlardır,**
**Bu eşqə odlananlardır.**

Millətləri dönməz edər,
Dövlətləri yenməz edər,
Amalları sönməz edər,

**Yurda əsgər olan rəhbər**
**Zirvələrdən baxan öndər.**

Ömürləri dastan edər,
Ruhunda güc qaynayanlar.
Əməliylə nağıllaşar,

**Yollar açan qəhrəmanlar,**
**Özü də bir yol olanlar.**

BAHAR KİMİ QAYITDIN

Nə qədər ki, sönməyibdir ümidlər,
Nə qədər ki ürəklərdə güman var.
Könül susmaz, ağ günləri gözləyər,
Arzularla, xəyallarla yaşayar.

***Nə qədər ki, sönməyibdir ümidlər,***
***Könül susmaz, ağ günləri gözləyər,***

Bahar kimi, səhər kimi qayıtdın,
Solan ümid, sönən inam gül açdı.
Sən qüruru, iftixarı oyatdın,
Azərbaycan günəş olub nur saçdı.

***Bahar kimi, səhər kimi qayıtdın,***
***Sən qüruru, iftixarı oyatdın.***

Bir millətin son ümidi sən idin,
Çətin günçün qoruyubmuş səni Vaxt.
Sən dözmədin dar günündə millətin,
Gəlməyinçün qapısını açdı Baxt.

Gəldin, sənin gəlişinlə bu yurda,
Nizam gəldi, sahman gəldi, güc gəldi.

Təlatümlər sarsıtmışdı xalqı da,
Gəldin, bu el hünərinlə dikəldi.

Bahar kimi, səhər kimi qayıtdın,
Solan ümid, sönən inam gül açdı.
Sən qüruru, iftixarı oyatdın,
Azərbaycan günəş olub nur saçdı.

***Bahar kimi, səhər kimi qayıtdın,***
***Sən qüruru, iftixarı oyatdın.***

DAVAMÇIN VAR

Həyatını sən yurduna,
Millətinə bağışladın.
Ürək-Ürək, dodaq-dodaq,
Qanadlanar əziz adın.

**Nə xoşbəxtdir Azərbaycan,**
**Zirvə olan Heydəri var.**
**Tarixlərə möhür vuran,**
**Əbədi bir öndəri var.**

Qəlbin idi Azərbaycan,
Onu müqəddəs sanırdın.
“Xalq” deyəndə sayğı ilə
Sən farağat dayanırdın.

Heykəlləşib qayıtmısan,
Vətən boyu yüksəlirsən.
O vüqarlı duruşunla
Bizimləsən yenə də sən!

Çiçəklənən Azərbaycan,
Səndən bizə bir yadigar.

Ruhun şaddır, bəxtiyarsan,
Özün kimi davamçın var!

**Nə xoşbəxtdir Azərbaycan,**
**Zirvə olan Heydəri var.**
**Tarixlərə möhür vuran,**
**Əbədi bir öndəri var.**

***Rafael Hüseynov***
***Xalq qəzeti. – 2009. – 8 may.- S.4.***